**Mən demişəm ki, biz danışıqları imitasiya üçün aparası deyilik. Biz danışıqları mahiyyət üzrə aparmaq istəyirik... Belə olan halda, əlbəttə, biz danışıqlarda iştirak edəcəyik. Əks halda, mənasız danışıqların aparılmasına heç bir ehtiyac qalmayacaq. Bax, biz Minsk qrupundan bunu gözləyirik və öz mövqeyimizdə möhkəm dayanmışıq, haqq-ədalət bizim tərəfimizdədir. Biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında və heç kimin Aprel döyüşləri yadından çıxmasın.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



Doğrudur, BMT Təhlükəsizlik Şurası başda olmaqla bir çox beynəlxalq təşkilatlar "Ermənistan qoşunları işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmalıdır", "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir", "Danışıqların Azərbaycan və Ermənistan dövlətləri arasında aparılmasından başqa heç bir variant mümkün deyil" kimi onlarca qərar, qətnamə qəbul etmiş, çoxsaylı fikirlər səsləndirilmişdir. Ancaq işğalçı və terrorçu dövlətin himayədarları hələ də onları ayaq üstdə saxlamaqda davam edir, dəstək verir.

# Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır və olunacaq!

Bu münaqişənin ədalətli həllinə nail olmaq üçün bizim xeyli üstünlüklərimiz vardır. Əvvəla, biz haqlıyıq və beynəlxalq hüququn prinsipləri bizə istənilən yolla ərazi bütövlüyümüzü bərpa etmək haqqı verir. İkinci, apardığımız xarici siyasət və diplomatik fəaliyyət nəticəsində dünya ictimaiyyətinin bizi dəstəkləməsinə nail olmuşuq. Üçüncü, Azərbaycan dövləti Ermənistana nisbətən qat - qat qüdrətlidir. Dördüncü, Ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır. Beşinci, yüksək səviyyəli xalq-ordu və xalq - iqtidar həmrəyliyi mövcuddur. Nəhayət, xalqın lideri və dövlətin başçısı olan Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həllinə nail olmaq üçün mükəmməl siyasi-diplomatik mübarizə aparır.

Dövlət başçımız hətta beynəlxalq tədbirlərin az olduğu 2020-ci ildə də bu məsələni daim dünya siyasətçilərinin nəzərinə çatdırır və beynəlxalq gündəlikdə öz yerini tutmasına çalışır və nail olur. Elə bir ay yoxdur ki, İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hansısa addımları atmasın. Yanvar ayında Davos İqtisadi forumu çərçivəsində keçirilən çoxsaylı görüşlərdə iqtisadi məsələlər müzakirə edilsə də, bu problemimiz də qabardılırdı.

Yadımdadır, cənab Prezident bu ilin fevralında İtaliyada rəsmi səfərdə olarkən imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"də Azərbaycan və İtaliya bir-birilərinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyi bir daha təsdiqlədirlər. Fevralın 20-də Romadakı Kuirinale Sarayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın adından Azərbaycan Prezidentinin şərəfinə verilən dövlət ziyafətində İlham Əliyev demişdir ki, bu bəyannamənin prinsipləri BMT Təhlükəsizlik Şurasının Ermənistan -Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi və təcavüzkar Ermənistanın qoşunlarının Azərbaycanın bütün işğal olunmuş torpaqlarından çıxarılmasını tələb edən qətnamələri ilə uzlaşır: "Uzun illərdir ki, Ermənistan Azərbaycan ərazilərini işğal etmiş, etnik təmizləmə aparmış, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".

***Tale bizi ermənilərlə eyni regionda yaşamağa məhkum edib. Bu qismət xalqımıza və dövlətimizə çox müsibətlər yaşadıb. "Dünyanın bütün xalqlarının mədəniyyəti erməni mədəniyyətindən bəhrələnərək inkişaf etmişdir", "Ermənistan dövlətinin ərazisində yeddi dəniz mövcud olmuşdur", "Peyğəmbərlərin əksəriyyəti erməni əsillidir", "Dünyada yapon xalqı adlı anlayış yoxdur", "Moskva Kremlini də ermənilər inşa etmişlər" kimi mifik, cəfəng, uydurma iddialarla çıxış edən ermənilərin "Dağlıq Qarabağ Ermənistan torpağıdır" məntiqi də heç kəs tərəfindən ciddi qarşılanmır. Ancaq çox təəssüf ki, ermənilərin xəstə təxəyyülünün nəticəsi olan bu iddia hələ də faciələrə səbəb olur.***

Sonrakı aylarda dövlət başçımızın təşəbbüsü ilə video formatda keçirilən bir neçə beynəlxalq tədbirdə də bu məsələ gündəliyə çıxarılmış və Ermənistanın havadarlarının nəzərinə çatdırılmışdır ki, bu münaqişə Azərbaycanın ərazi bütövlüyünün bərpası şərti ilə həll olunmalıdır. İki ay əvvəl -- iyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak ediblər.

Tibb ocağında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Xəzər" Televiziyasına müsahibə verib. Həmin müsahibədə də Dağlıq Qarabağ münaqişəsi əsas məsələlərdən biri idi. Ən başlıcası, Prezident həmin gün böyük qətiyyətlə bəyan etdi ki, bu münaqişənin həlli ilə bağlı bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz: "Çünki bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanır. Mənim bu məsələ ilə bağlı kifayət qədər açıqlamalarım olub, o cümlədən beynəlxalq tədbirlər çərçivəsində və bunu artıq bilməyən yoxdur. Ona görə bizim mövqeyimizdə hər hansı bir dəyişiklik mümkün deyil, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək. İşğal edilmiş bütün torpaqlar işğalçılardan azad edilməlidir, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Bu, prinsipial mövqedir və dünya birliyi bu mövqeyi dəstəkləyir".

Xatırladaq ki, ölkəmizin ərazi bütövlüyü ilə əlaqədar bütün aparıcı beynəlxalq təşkilatlar müxtəlif vaxtlarda, o cümlədən son vaxtlarda açıq-aydın ifadələr işlədiblər, qərarlar, qətnamələr qəbul ediblər. BMT, onun Təhlükəsizlik Şurası, Baş Assambleyası, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa İttifaqı, Avropa Şurası Parlament Assambleyası, NATO və digər təşkilatlar qətnamələr qəbul ediblər. Yəni, bu, hüquqi müstəvidir, bizim mövqeyimizi tam möhkəmləndirən mənzərədir.

Başqa bir məqama da diqqət yönəldək. Son zamanlar region ölkələri Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycana açıq və konkret dəstək verirlər. Məsələn, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla, qardaş ölkənin bütün rəsmiləri xalqımızın haqq işini dəstəkləyən bəyanat verir və ya konkret fikirlər səsləndirirlər.

Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bugünlərdə İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul edərkən demişdir ki, təxminən iki ay əvvəl Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təcavüzü ilə əlaqədar Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın mövqeyini və haqq işini dəstəkləyən, Ermənistanın addımlarını pisləyən qətnamələr qəbul etmiş və açıqlamalar vermişdir: "İran İslam Respublikası bu iki təşkilatın fəal üzvü kimi bu mövqeyə qoşularaq növbəti dəfə Azərbaycana öz dəstəyini göstərmişdir. Buna görə mən sizə minnətdaram".

ABŞ, Rusiya Federasiyası, bir sıra Avropa ölkələri və İsraildən də bu məzmunlu dəstək xəbərləri alırıq və ona görə də inanırıq ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa ediləcəyi gün uzaqda deyil.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***